**Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 30 dekabr 2019-cu il tarixli 113 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.**

# 20 Yanvar faciəsinin otuzuncu ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər planı

| S.N | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Qəbələ şəhərində, rayonun bütün qəsəbə və kəndlərində 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş tədbirlərin təşkil edilməsi | Qəbələ Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi, ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsi, yerli icra nümayəndəlikləri | Ətayə Osmanova, Zülfüqar Cəfərov | 7-20 yanvar 2020-ci il |
| 2. | Rayonun idarə və təşkilatlarında 20 Yanvar gününün Azərbaycanın azadlığı və suverenliyi uğrunda mübarizənin rəmzi kimi qeyd olunması ilə əlaqədar tədbirlərin keçirilməsi | RİH-nin Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi, ictimai-siyasi və humanitar məsələlər şöbəsi, hüquq şöbəsi | Arif Allahverdiyev, Ətayə Osmanova, Məmməd İsmayılov | 7-20 yanvar 2020-ci il |
| 3. | 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkil edilməsi | Rayon təhsil şöbəsi, gənclər və idman idarəsi, mədəniyyət mərkəzi, digər dövlət qurumları | Arifə Bayramova, Fəxri Soltanov, Nargilə Qafarova | 7-18 yanvar 2020-ci il |
| 4. | 20 Yanvar faciəsinin otuzuncu ildönümünə dair materialların "Qəbələ" qəzetində dərc edilməsi | RİH-nin ictimai-siyasi və humanitar məsələlər şöbəsi, "Qəbələ"qəzeti | Ətayə Osmanova, Varis Yaqubov | Yanvar 2020-ci il |
| 5. | "Şəhidlər Xiyabanı" və ətraf ərazidə təmizlik və abadlıq işlərinin aparılması | Şəhər inzibati ərazi nümayəndəliyi, mənzil istismar və kommunal müəssisələri kombinatı | Dəmir Bağırov, Rəhman Kərimov | 2020-ci il yanvarın 19-dək |
| 6. | Rayondakı mədəni-maarif müəssisələrində 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar ədəbi-bədii kompozisiyaların təşkil edilməsi, sənədli filmlərin nümayiş etdirilməsi | Qəbələ Mədəniyyət Mərkəzi | Ətayə Osmanova, Nargilə Qafarova | 7-19 yanvar 2020-ci il |
| 7. | Rayonun bütün təhsil müəssisələrində 20 Yanvar faciəsinə həsr olunmuş xüsusi dərslərin aparılması | Rayon təhsil şöbəsi | Ətayə Osmanova, Arifə Bayramova | 17 yanvar 2020-ci il |
| 8. | 20 Yanvar faciəsi zamanı şəhid olanların xatirəsinə aid dini mərasimlərin keçirilməsi | RİH-nin İctimai-siyasi və humanitar məsələlər şöbəsi, RİH-nin Ərazi idarəetmə və yerli özünü idarəetmə orqanları ilə iş şöbəsi, yerli icra nümayəndəlikləri, Qəbələ şəhərinin, qəsəbə və kəndlərin dini icmaları | Ətayə Osmanova, Zülfüqar Cəfərov, Absalam Hüseynov, yerli icra nümayəndələri | 16-18 yanvar 2020-ci il |
| 9. | 20 Yanvar günü "Şəhidlər Xiyabanı"na ziyarətə gələnlərin hərəkət marşurutunun müəyyənləşdirilərək nizamlanması, asayişin qorunması, təhlükəsizliyin təşkili və nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi | Rayon polis şöbəsi, şəhər inzibati ərazi nümayəndəliyi | Nadir Məmmədov, Dəmir Bağırov | 20 yanvar 2020-ci il |
| 10. | 20 Yanvar günü "Şəhidlər Xiyabanı"na ziyarətə gələnlərə ehtiyac olarsa ilkin təxirəsalınmaz tibbi yardımın göstərilməsi məqsədilə təcili tibbi yardım xidmətinin təşkil olunması | RİH-nin İctimai-siyasi və humanitar məsələlər şöbəsi, rayon mərkəzi xəstəxanası | Ətayə Osmanova, Sabir Bayramov | 20 yanvar 2020-ci il |
| 11. | Şəhidlər Xiyabanında gün ərzində matəm musiqisinin səsləndirilməsinin təmin edilməsi | Şəhər inzibati ərazi nümayəndəliyi, Qəbələ Mədəniyyət Mərkəzi | Dəmir Bağırov, Nargilə Qafarova | 20 yanvar 2020-ci il |
| 12. | 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyəti başçısı adından "Şəhidlər Xiyabanı"nda yerləşən xatirə kompleksinə əklil qoyma mərasimi (idarə, təşkilat və müəssisə rəhbərlirinin iştirakı ilə) | Rayon icra hakimiyyəti, şəhər inzibati ərazi nümayəndəliyi | Abil Ağasəfov, Arif Allahverdiyev, Ətayə Osmanova, Zülfüqar Cəfərov, Dəmir Bağırov | 20 yanvar 2020-ci il |
| 13. | Şəhidlər Xiyabanında Qəbələ rayon ictimaiyyətinin ziyarətinin təşkil edilməsi | Rayon icra hakimiyyəti, şəhər inzibati ərazi nümayəndəliyi | Abil Ağasəfov, Arif Allahverdiyev, Ətayə Osmanova, Zülfüqar Cəfərov, Dəmir Bağırov | 20 yanvar 2020-ci il |
| 14. | Yanvarın 20-də yerli vaxt ilə saat 12-00-da rayon ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, avtomobillər vasitəsilə səs siqnallarının verilməsi | Rayon polis şöbəsi | Nadir Məmmədov | 20 yanvar 2020-ci il |
| 15. | 20 Yanvar hadisəsinin otuzuncu ildönümü ilə əlaqədar Qəbələ şəhərində, rayonun qəsəbə və kəndlərində hüzn əlaməti olaraq, Azərbaycan Respublikasının Dövlət bayrağının endirilməsi | RİH-nin İctimai-siyasi və humanitar məsələlər şöbəsi, idarə-təşkilat və müəssisələr, yerli icra nümayəndəlikləri | Ətayə Osmanova, Arif Allahverdiyev, Zülfüqar Cəfərov | 20 yanvar 2020-ci il |

## İnzibati ərazi nümayəndəliklərində hesabat iclasları keçirilir

Yanvar ayının 7-dən rayonun inzibati ərazi nümayəndəliklərində hesabat yığıncaqlarının keçirilməsinə başlanılıb. Yığıncaqlarda icra nümayəndələri 2019-cu ildə nümayəndəliyin əhatə etdiyi ərazidə görülmüş işlər və 2020-ci ildə qarşıda duran vəzifələrə dair hesabat verirlər. Hesabat yığıncaqlarının yanvar ayının 31-də başa çatacağı nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, əvvəlki illər kimi 2019-cu il də Qəbələ rayonunda, o cümlədən hər bir inzibati ərazi dairəsində uğurlu inkişaf ili olmuşdur. Qəbələ şəhərində əhalinin çoxdan arzusunda olduğu içməli su və kanalizasiya layihəsi başa çatmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin oktyabr ayının 28-də Qəbələyə gəlmiş, rayonda gedən quruculuq iuşləri ilə yaxından tanış olmuş, yeni inşa olunmuş infrastruktur layihələrinin açılış mərasimlərində iştirak etmişdir.

Şəhərin daxili yollarının əksəriyyətinə asfalt örtük çəkilmiş, qəsəbə və kəndlərdə abadlıq-quruculuq işləri davam etmişdir.Uzunluğu 19 kilometr olan, 10 min nəfərdən çox əhalinin yaşadığı və 11 yaşayış məntəqəsini birləşdirən Böyük Əmili-Kiçik Əmili-Zalam-Yenikənd-Bılıx-Məlikli-Əmirvan yolu yenidən müasir tələblər səviyyəsində qurulmuş, Vəndam qəsəbəsində 360 yerlik yeni məktəb binası tikilib istifadəyə verilmişdir.

Bir sözlə, inzibati ərazi nümayyəndəliklərində keçirilən hesabat yığıncaqlarında kifayət qədər deyiləsi söz var.

**"Qəbələ"**

## Şanlı tarixìmìzìn canlı yadìgarı

**(Əvvəli ötən nömrəmizdə).**

Qəbələnin qala divarları özünün möhtəşəmliyi ilə Azərbaycanın digər orta əsr şəhərlərinin müdafiə sistemindən xeyli fərqlənir. divarlarının daxili tərəfində isə çay daşı, bişmiş kərpic və əhəng məhlulu ilə tikilən köməkçi divar qalıqları olduğu müəyyən edilib. Tədqiqatçıların fikrincə 6 m uzunluğu olan bu divar əsas qala divar-



Səlbirin divarları əsasən Sasani dövrü arxitekturası üçün xarakterik olan çiy kərpicdən və yonulmuş çay daşından istifadə olunmaqla inşa edilib. Yarımdairəvi formada olan bürc möhrədən və tərkibində saman qatışığı olan çiy kərpicdən tikilib. Bürcün daxili hissəsinin diametri 3 m-dir. Həm qala bürcünə, həm də onun davamı olan divarlara xaric tərəfdən çiy kərpiclə üzlük vurulub. Qala larından sonra, bərpa məqsədilə tikilib.

Hündürlüyü 14 m olan daha bir bürc düzbucaqlı formasındadır. Yonulmuş çay daşı və əhəng məhlulu ilə tikilib, daha sonra isə tuf daşdan üzlük vurulub. Mütəxəssislərin fikrincə, e.ə I əsrdə tikilən bu bürc əsrlər boyu şəhərin etibarlı müdafiə sisteminə xidmət edib.

**(Ardı gələn nömrəmizdə).**

## Süni intellektə dair onlayn kurslar

Finlandiya Avropa İttifaqı ölkələrinin vətəndaşlarına süni intellektə dair pulsuz onlayn-kurslardan keçməyi təklif edir.

AZƏRTAC Finlandiya KİV-lərinə istinadla xəbər verir ki, Milad bayramı ərəfəsində Aİ ölkələrinə hədiyyə kimi təqdim edilən bu kurslar Finlandiyanın Aİ-də sədrliyinin sonuna həsr edilib və yalnız Avropa İttifaqı vətəndaşları üçün nəzərdə tutulub.

Finlandiya hökumətinin Helsinki Universiteti ilə birlikdə işləyib hazırladığı bu layihə 2021-ci ilə qədər davam edəcək. Onlayn-kurslar cəmiyyətin durmadan rəqəmsallaşmasından və əmək bazarında süni intellektin insanlara təklif etdiyi imkanlardan faydalanmaqda Aİ ölkələrinə kömək etməlidir. Kurs süni intellektin element konsepsiyalarını praktikada əhatə edir, lakin kodlaşdırma kimi mürəkkəb məsələlərin dərinliyinə getmir.




Hazırda layihə fin, ingilis, İsveç və eston dillərində istifadəyə verilib. Lakin layihənin yaradıcıları əmin edirlər ki, o, Aİ-yə daxil olan bütün ölkələrin dillərində təqdim ediləcək.